ƏTRAF MÜHİT, TƏBİİ EHTİYATLAR VƏ SAĞLAMLIĞIN QORUNMASI KOMİSSİYASI

ALTINCI İCLAS

# “Su ehtiyatları və torpaqların idarə edilməsi”

## TÖVSİYƏ QƏRARI

Parlament Assambleyası:

Dünyanın su ehtiyatları və torpaqları tükənən olduğuna görə və artan əhalinin təzyiqi altında olması səbəbi ilə su ehtiyatlarının və torpaqların qorunması və idarə edilməsinin son dərəcə vacib olduğunu ***təsdiq edərək***;

Koronavirus (COVID-19) xəstəliyinin yayılmasına və onun bəşəriyyətə, həmçinin ətraf mühitə, xüsusilə su ehtiyatları və torpağa təsirinə xüsusi ***həssaslıqla yanaşaraq***;

Qlobal COVID-19 pandemiyasının ətraf mühitə həm mənfi, həm də müsbət təsir göstərdiyini ***qeyd edərək***;

Torpağın və su obyektlərinin turşuluğunun daha yüksək səviyyədə olması, bioloji müxtəlifliyin itirilməsinin artımı, daha çox torpaq eroziyası, artan tullantıların və çirklənmənin daxil olduğu ekoloji nəticələrə dair narahatlıqları ***nəzərə alaraq***;

TÜRKPA üzvü ölkələrinin də qoşulduğu və qəbul etdiyi su resursları və torpaq idarəçiliyi ilə əlaqəli beynəlxalq əməkdaşlığın, beynəlxalq konvensiya və qanunların əhəmiyyətini ***qeyd edərək***;

Qida və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP), Ümumdünya Səhiyyə Təşkilatı (WHO) və s. kimi su və torpaq problemləri ilə məşğul olan beynəlxalq qurumların və BMT-nin ixtisaslaşmış qurumlarının fəaliyyətini ***dəstəkləyərək***;

Davamlı torpaq və su idarəçiliyi ilə bağlı konsolidasiya edilmiş razılaşma və fəaliyyət çərçivəsinin olmaması səbəbi ilə beynəlxalq təşəbbüslərə daha yaxşı və effektiv inteqrasiya üçün təcili ehtiyac olduğunu ***vurğulayaraq***;

Komissiyanın hesabat məruzəsinin giriş hissəsində göstərilmiş ekoloji problemlər, su ehtiyatları və torpaqların idarə olunması ilə əlaqədar TÜRKPA Katibliyi tərəfindən keçirilən komissiya iclaslarının beş tövsiyə qərarını və seminarların üç yekun hesabatını ***xatırladaraq***;

Qanunvericilik baxımından, təbii ehtiyatların, o cümlədən su və torpaqların qorunması və idarə olunmasında parlamentlərin əsas rolunu ***nəzərə alaraq***;

Assambleya, TÜRKPA üzvü ölkələrinin parlamentlərinə tövsiyə edir:

*a)* üzv ölkələr arasında qanunvericiliyin uyğunlaşdırılması və yaxınlaşdırılması vasitəsi ilə su ehtiyatları və torpaqların idarə olunması sahəsində hüquqi bazanı *təkmilləşdirmək*;
b) ekoloji qanunvericiliyi, su ehtiyatları və torpağın idarəedilməsi də daxil olmaqla, beynəlxalq səviyyədə qəbul edilmiş ətraf mühitin qorunması standartlarına *uyğunlaşdırmaq*;
c) COVID-19 pandemiyası və ya oxşar vəziyyətlər zamanı üzv ölkələrin müxtəlif müvafiq strukturları arasında, xüsusən qanunvericilik sahəsində əməkdaşlıq və fəaliyyətlərin sinxronizasiyası yollarını *araşdırmaq*;
*d)* gələcəkdə əsas problemlərin və növbəti fəaliyyətlərin müəyyənləşdirilməsi üçün mütəxəssislər və hüquqşünaslar arasında mütəmadi olaraq məsləhətləşmələr *təşkil etmək*;
*e)* əhalinin sosial fəallığını artırmaq, ölkə üçün vacib və strateji hədəflər olan su ehtiyatları və torpaqların qorunması məqsədilə məsuliyyət hissini formalaşdırmaq üçün qeyri-hökumət təşkilatları ilə *sıx işləmək*;
f) müvafiq sahələrdə TÜRKPA üzvü ölkələri arasında əməkdaşlığın prioritetlərini *müəyyənləşdirmək*;
g) məlumat və təcrübə mübadiləsi, təlim və birgə tədqiqat proqramları kimi sahələrdə regional və ikitərəfli əməkdaşlığı *gücləndirmək*;
*h)* Türkiyədə türkdilli ölkələrin Ortaq Toxum Gen Bankının yaradılmasını nəzərdən keçirmək və bu sahədə müvafiq *addımlar atmaq*;
i) üzv ölkələrdə su ehtiyatları və torpaqlardan səmərəli istifadə ilə bağlı qanunvericiliyi öyrənmək, müvafiq sənədləri toplamaq və müvafiq sahədə qanunların yaxınlaşdırılması üçün onları *təhlil etmək*.